*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2025*
*Səh. 279-283*

https://doi.org/10.62837/2025.3.279

**NURANƏ ELMAN QIZI MƏMMƏDLİ**
Bakı Slavyan Universiteti
mmmedlinurane18@gmail.com

# MÜASİR TÜRK VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ SİYASİ TERMİNOLOGİYANIN ROLU VƏ ÜSLUBİ XÜSUSİYYƏTLƏRİ

## XÜLASƏ

Türk və Azərbaycan dillərinin lüğət tərkibinin öyrənilməmiş bir hissəsini də terminlər təşkil edir. Elm, texnika, siyasət və mədəniyyətə aid xüsusiləşmiş mənalı söz və ifadədən ibarət olan terminlər elmi anlayışları inikas etdirir. Elmi anlayışları bildirən bütün terminlər aid olduğu elmin yaranmasında, formalaşması və inkişaf etməsində xüsusi əhəmiyyətə malikdir. Elə buna görə də terminlərə elmi münasibət bəsləməmək, onları qarışdırmaq kimi hallar elmin inkişafına mənfi təsir göstərir. Xüsusi funksiya daşıyan sözlər, eyni zamanda, mənanın xüsusiləşməsi, semaseoloji hüdudunun dəqiqliyi, intellektual təmizliyi, emosional və obrazlı hisslərdən təcrid olunması ilə digər söz qruplarından fərqlənir.

Müasir dövrdə siyasi terminologiya ictimai rəyin formalaşması, dövlət idarəçiliyi, qanunvericilik və media diskursunda mühüm rol oynayır. Türk və Azərbaycan dillərində siyasi terminlər tarixi, sosial və beynəlxalq amillərin təsiri ilə inkişaf etmiş, eyni zamanda funksional və üslubi baxımdan müəyyən xüsusiyyətlər qazanmışdır.

Türk və Azərbaycan dillərində siyasi terminlər əsasən rəsmi, elmi və media diskurslarında istifadə olunur. Rəsmi sənədlərdə və qanunvericilik mətnlərində bu terminlər dəqiq və neytral üslubda işlədilir. Hüquqi mətnlərdə "qanunvericilik hakimiyyəti", "icra orqanı", "seçki sistemi" kimi ifadələr mövcuddur. Media və ictimai diskursda isə siyasi terminlər daha emosional və təsirli üslubda işlədilir, ictimai rəyə təsir etmək məqsədilə metaforik və propagandistik ifadələrlə zənginləşdirilir. Məsələn, Türkiyə mediasında "milli irade", "istikrar", "büyük Türkiye" kimi terminlər geniş istifadə edilir, Azərbaycanda isə "milli maraqlar", "strateji tərəfdaşlıq", "dayanıqlı inkişaf" kimi ifadələr ön plandadır.

**Açar sözlər:** termin, siyasi terminologiya, diskurs, ictimai rəy, tarixi və ideoloji təsirlər.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2025*
*Səh. 279-283*

**МАМЕДЛИ НУРАНА ЭЛЬМАН**

# РОЛЬ И СТИЛИСТИЧЕСКИЕ ОСОБЕННОСТИ ПОЛИТИЧЕСКОЙ ТЕРМИНОЛОГИИ В СОВРЕМЕННЫХ ТУРЕЦКОМ И АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКАХ

## Резюме

Словарный состав турецкого и азербайджанского языков включает также термины, которые представляют собой еще неизученную часть. Термины, относящиеся к науке, технике, политике и культуре, являются специализированными словами и выражениями, которые отражают научные концепции. Все термины, которые обозначают научные понятия, имеют особое значение для возникновения, формирования и развития соответствующей науки. Именно поэтому несерьезное отношение к терминам, их путаница и неправильное использование могут негативно повлиять на развитие науки. Специальные слова, с одной стороны, отличаются точностью семантических границ, интеллектуальной чистотой, исключением эмоциональных и образных чувств, что отличает их от других слов.

В современную эпоху политическая терминология играет важную роль в формировании общественного мнения, государственном управлении, законодательстве и медийном дискурсе. Политические термины в турецком и азербайджанском языках развивались под воздействием исторических, социальных и международных факторов, а также приобрели определенные функциональные и стилистические особенности.

Политическая терминология в турецком и азербайджанском языках используется в основном в официальных, научных и медийных дискурсах. В официальных документах и законодательных актах эти термины используются в точной и нейтральной форме. В юридических текстах встречаются такие выражения, как «законодательная власть», «исполнительный орган», «избирательная система». В медийном и общественном дискурсе политические термины приобретают более эмоциональный и выразительный стиль, насыщены метафорическими и пропагандистскими выражениями для воздействия на общественное мнение. Например, в турецких СМИ широко используются термины «национальная воля», «стабильность», «великая Турция», а в Азербайджане — «национальные интересы», «стратегическое партнерство», «устойчивое развитие».

**Ключевые слова:** термин, политическая терминология, дискурс, общественное мнение, историческое и идеологическое влияние.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2025*
*Səh. 279-283*

**MAMMADLI NURANA ELMAN**

# THE ROLE AND STYLISTIC FEATURES OF POLITICAL TERMINOLOGY IN MODERN TURKISH AND AZERBAIJANI LANGUAGES

## ABSTRACT

The unexplored part of the vocabulary of the Turkish and Azerbaijani languages also includes terms. Terms consisting of specialized words and expressions related to science, technology, politics, and culture reflect scientific concepts. All terms that denote scientific concepts play a special role in the emergence, formation, and development of the respective field of science. Therefore, neglecting scientific terms or confusing them can negatively impact scientific progress. Words with a special function also differ from other word groups by the specialization of meaning, the precision of semantic boundaries, intellectual clarity, and the absence of emotional and figurative connotations.

In the modern era, political terminology plays a crucial role in shaping public opinion, state governance, legislation, and media discourse. Political terms in the Turkish and Azerbaijani languages have developed under the influence of historical, social, and international factors and have acquired specific functional and stylistic characteristics.

Political terms in Turkish and Azerbaijani are primarily used in official, scientific, and media discourse. In official documents and legislative texts, these terms are used in a precise and neutral style. Legal texts include expressions such as “legislative power,” “executive body,” and “electoral system.” In media and public discourse, political terms are used in a more emotional and persuasive manner, enriched with metaphoric and propagandistic expressions to influence public opinion. For example, in Turkish media, terms such as “national will,” “stability,” and “Great Turkey” are widely used, while in Azerbaijan, expressions like “national interests,” “strategic partnership,” and “sustainable development” are more prominent.

**Keywords:** term, political terminology, discourse, public opinion, historical and ideological influences.

Siyasi terminologiya hər bir dövlətin siyasi diskursunun əsas tərkib hissəsidir. Beynəlxalq əlaqələr, qanunvericilik və media kimi sahələrdə siyasi terminlər xüsusi əhəmiyyət daşıyır. Azərbaycan və türk siyasətində işlədilən siyasi terminologiya tarixi, sosial və dil faktorlarındam təsirlənərək formalaşmış və zamanla inkişaf etmişdir.

Müasir siyasi diskursda terminlərin əsas rolu informasiya ötürmək, ictimai rəyi yönləndirmək və siyasi mövqeləri ifadə etməkdir. Siyasi terminlər cəmiyyətə təsir

baxımından da önəmlidir. Onların rəsmi nitqlərdə, media çıxışlarında və qanunvericilik sənədlərində istifadəsi vətəndaşların dövlət siyasətini necə qavramasına birbaşa təsir edir. Məsələn, Azərbaycan mediasında "strateji tərəfdaşlıq" ifadəsi beynəlxalq münasibətlərdə müttəfiqlik anlayışını gücləndirmək üçün istifadə edilir. Türkiyə mediasında isə "qlobal güç" termini ölkənin beynəlxalq arenada nüfuzunu artırmaq məqsədilə işlədilir.

Müasir dövrdə Azərbaycan və Türkiyə siyasətində işlədilən terminlər müxtəlif mənşələrə malikdir və onların rolu bir neçə əsas sahədə özünü göstərir:

1. Qanunvericilik və Dövlət İdarəçiliyi

Türk və Azərbaycan dillərində qanunvericilik aktlarında və rəsmi sənədlərdə istifadə edilən terminlər aydın, konkret və standartlaşdırılmış olmalıdır. Azərbaycan qanunvericiliyində tez-tez rast gəlinən terminlər: "qanunvericilik hakimiyyəti", "icra hakimiyyəti", "dövlət suverenliyi", "konstitusiya dəyişikliyi", "referendum" və s.

Türkiyə qanunvericiliyində isə oxşar anlayışlar belə ifadə olunur: " devlet egemenliği", "anayasa değişikliği", "halk oylaması" və s. Bu terminlər rəsmi sənədlərdə dəqiq və konkret mənalar daşıyır. Onların düzgün istifadəsi hüquqi təfsirlərin və dövlət idarəçiliyinin səmərəli həyata keçirilməsində mühüm rol oynayır.

2. Media və ictimai diskurs

Siyasi terminlər mediada geniş şəkildə istifadə olunur və ictimai rəyə təsir etmək gücünə malikdir. Azərbaycan və Türkiyə mediasında siyasi terminologiyanın işlədilməsi ölkələrin siyasi kursunu və cəmiyyətin dünyagörüşünü formalaşdırır.

Azərbaycan mediasında: "milli maraqlar", "beynəlxalq təşkilatlar", "regional təhlükəsizlik" kimi ifadələr geniş yayılmışdır.

Türkiyə mediasında: "milli irade", "bölgesel güç", "stratejik işbirliği" kimi anlayışlar tez-tez işlədilir.

3. Beynəlxalq münasibətlər və Diplomatiya

Azərbaycan və Türkiyə diplomatik münasibətlərdə beynəlxalq terminlərdən istifadə edir və bu sahədə ortaq siyasi dil formalaşdırmağa çalışır.

Azərbaycan diplomatiyasında işlənən terminlər: "ikitərəfli əməkdaşlıq", "diplomatik missiya", "sülh prosesləri" və s.

Türkiyə diplomatiyasında istifadə edilən terminlər: "diplomatik misyon", "ikili işbirliği", "barış süreci" və s. Bu terminlər beynəlxalq siyasətə inteqrasiyanı gücləndirən vasitələr kimi çıxış edir.

Siyasi terminologiyanın üslubi xüsusiyyətləri müxtəlif nitq strategiyalarında özünü göstərir. Siyasətçilər rəsmi nitqlərində terminlərdən istifadə edərək fikirlərini daha təsirli və inandırıcı şəkildə çatdırmağa çalışırlar.

**Nəticə**

Müasir türk və Azərbaycan dillərində siyasi terminologiya müxtəlif ictimai-siyasi diskursda mühüm rol oynayır. Siyasi terminlərin rəsmi, emosional və

metaforik üslubları onların müxtəlif kontekstlərdə işlənməsinə təsir edir. Azərbaycan və Türkiyə siyasi terminologiyası arasında həm ortaq cəhətlər, həm də fərqlər mövcuddur. Lakin hər iki ölkənin siyasi leksikası zamanla inkişaf edərək daha da zənginləşməkdədir. Bu nəticəyə gəlirik ki, siyasi terminlər təkcə rəsmi ünsiyyət vasitəsi deyil, həm də ictimai rəyin formalaşmasında, ideoloji diskursun qurulmasında və dövlət siyasətinin icrasında mühüm əhəmiyyət kəsb edir.

**İstifadə edilmiş ədəbiyyat siyahısı**

1. Cəfərov S. Müasir Azərbaycan dilinin leksikası. Bakı: Azərbaycan Universiteti, 1956
2. Cəfərov S. Müasir Azərbaycan dili, II hissə, Leksika. Bakı: Şərq-Qərb, 2007
3. Cəfərov V.B. Diplomatik yazışma. Bakı: Elm, 1997, 71 s.
4. İzahlı ictimai-siyasi terminlər lüğəti. S.Sadıqova, S.Novruzova, S.Quliyeva. AMEA, Bakı: Zərdabi nəşr, 2023.
5. Diplomasi kavramları sözlüğü
6. Türkel Y. Politologiya (açıqlamalarla sözlük)

**Rəyçi: dosent T.A. Quliyev**